**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## “Aqrar sığorta predmetinin Tərkibi”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 479 nömrəli Qərarı ilə təsdiq edilmiş “Aqrar sığorta predmetinin Tərkibi”ndə dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 21 dekabr tarixli 398 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş “Aqrar sığorta predmetinin Tərkibi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.1.10-1.1.36-cı yarımbəndlər əlavə edilsin:

“1.1.10. günəbaxan;

1.1.11. soya;

1.1.12. yonca;

1.1.13. noxud;

1.1.14. yaşıl noxud;

1.1.15. alça;

1.1.16. albalı;

1.1.17. alma;

1.1.18. armud;

1.1.19. çiyələk;

1.1.20. ərik;

1.1.21. gavalı;

1.1.22. gilas;

1.1.23. heyva;

1.1.24. xurma;

1.1.25. nar;

1.1.26. şaftalı;

1.1.27. cəviz;

1.1.28. soğan;

1.1.29. kələm;

1.1.30. qarpız;

1.1.31. yemiş (qovun);

1.1.32. pomidor;

1.1.33. sarımsaq;

1.1.34. darı;

1.1.35. fındıq;

1.1.36. çəltik;".

2. 1.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda 1.2.2-ci yarımbənd əlavə edilsin:

"1.2.1. iribuynuzlu mal-qara (südlük istiqaməti üzrə 11-ci gündən 7 yaşa qədər, ətlik istiqaməti üzrə 11-ci gündən 3 yaşa qədər);

1.2.2. xırdabuynuzlu heyvanlar (11-ci gündən 5 yaşa qədər);".

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "30" dekabr 2021-ci il

№ 273